Azərbaycan.- 2021.- 17 aprel. S. 2.

# Azərbaycan XİN:

# "N.Paşinyanın söylədiyi heç bir fikir şərh olunmağa belə layiq deyil"

**Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistanın baş naziri Nikol Paşinyanın bu ölkənin parlamentində söylədiklərinə münasibət bildirib.**

AZƏRTAC xəbər verir ki, XİN-in Mətbuat xidməti idarəsinin məsələ ilə bağlı şərhində deyilir: "Aprelin 14-də Ermənistan parlamentində çıxış edən baş nazir Nikol Paşinyan növbəti sərsəmləmələri ilə diqqət çəkməyə çalışıb.

N.Paşinyanın söylədiyi heç bir fikir şərh olunmağa belə layiq deyil.

Ağır məğlubiyyətdən nəticə çıxarmayan baş nazir Paşinyana elə onun istinad etdiyi şeir dili ilə izah etmək istərdik. Hüseyn Cavidin dediyi kimi:

*"Yurdumuzu çiynəyən*
*Sayğısız hər kim olsa.*
*İnan ki, çox sürmədən,*
*Diz çökəcək qarşıda".*